**UDC:** 327.
**LBC:** 66.4
**MJ №** 229
10.33864/2617-751X.2024.v7.i3.175-188

# Threats to Indigenous Tribal Peoples in Brazil during the Reign of Jair Bolsonaro and Ways to Combat Them

**Malak Jafarli***

**Abstract.** Brazil is a geographically large country with a significant indigenous population. Although these tribes strive to maintain their traditional way of life, they have undergone cultural changes over time due to interactions with the modern world. In recent years, especially in the Amazon rainforest, indigenous tribes have been forced to contend with deforestation and environmental threats. Consequently, preserving indigenous peoples and their cultural heritage has become an urgent task in the context of our multicultural world. The Amazon rainforest is crucial for global biodiversity. However, under former President Jair Bolsonaro, deforestation accelerated, leading to the destruction of natural habitats for indigenous peoples and complicating efforts to combat climate change. As a result, Brazil’s indigenous peoples faced serious threats to their land rights, cultural heritage, and shared habitat during his administration. Attacks on indigenous lands caused not only physical damage but also cultural and linguistic harm. Local communities struggled to maintain their traditional way of life and pass on their language and culture to future generations. Environmental groups, human rights activists, and other countries criticized Brazil’s policies and practices on this issue, demanding change. The article highlights the main reasons behind the threats faced by the local population during J. Bolsonaro's presidency. To preserve their existence, solutions such as raising public awareness within civil society, securing national and international support, revitalizing the economy, monitoring to stop encroachment on local lands, and further strengthening environmental protection were considered.

**Keywords:** Brazil, indigenous peoples, cultural heritage, Yanomami tribe, international law, Jair Bolsonaro.

---

* PhD student on "International relations" of Azerbaijan Tourism and Management University,
Lecturer at the Department of “Social Sciences”, Azerbaijan University of Architecture and Construction; Baku, Azerbaijan
E-mail: rzaeva.m15@gmail.com
https://orcid.org/0000-0002-7232-8465

**To cite this article:** Jafarli, M. [2024]. Threats to Indigenous Tribal Peoples in Brazil during the Reign of Jair Bolsonaro and Ways to Combat Them. *“Metafizika” journal, 7*(3), pp.175-188.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.175-188

***Article history:***
*Received: 15.04.2024*
*Accepted: 29.07.2024*

**УДК:** 327.
**ББК:** 66.4
**MJ №** 229
10.33864/2617-751X.2024.v7.i3.175-188

# Угрозы коренным племенным народам в Бразилии во время правления Жаира Болсонару и способы борьбы с ними

**Малак Джафарли[*]**

**Абстракт.** Бразилия - географически большая страна, где проживает большое количество коренных народов. Хотя эти племена стараются сохранить свой традиционный образ жизни, со временем они претерпели культурные изменения по мере взаимодействия с современным миром. Однако в последние годы, особенно коренные племена, живущие в лесах Амазонки, были вынуждены бороться с вырубкой лесов и экологическими угрозами. Поэтому сохранение коренных народов и их культурного наследия является одной из актуальных задач на фоне мультикультурного мира современности. Тропические леса Амазонки имеют огромное значение для биоразнообразия во всем мире. Однако при бывшем президенте Жаире Болсонару вырубка лесов ускорилась, что привело к разрушению естественной среды обитания коренных народов, а также к трудностям в борьбе с изменением климата. В результате при бывшем президенте коренные народы Бразилии столкнулись с серьезными угрозами своим земельным правам, культурному наследию и общей среде обитания. Нападения на земли коренных народов нанесли не только физический, но и культурный и языковой ущерб. Местные сообщества изо всех сил пытались сохранить свой традиционный образ жизни и передать свой язык и культуру будущим поколениям. Экологические организации, правозащитники и другие страны раскритиковали политику и практику Бразилии в этом вопросе и потребовали перемен. В статье раскрыты основные причины угроз в адрес местного населения во время правления Ж.Болсонару. Чтобы сохранить их существование, были рассмотрены такие решения, как повышение осведомленности общественности в гражданском обществе при национальной и международной поддержке, оживление экономики, осуществление мониторинга для прекращения посягательства на местные земли и дальнейшее усиление защиты окружающей среды.

**Ключевые слова:** Бразилия, коренные народы, культурное наследие, племя Яномами, международное право, Жаир Болсонару

---

[*] Докторант по специальности «Международные отношения» Азербайджанского университета туризма и менеджмента,
Преподаватель кафедры «Общественные науки» Азербайджанского Университета Архитектуры и Строительства; Баку, Азербайджан
E-mail: rzaeva.m15@gmail.com
https://orcid.org/0000-0002-7232-8465

**Цитировать статью:** Джафарли, М. [2024]. Угрозы коренным племенным народам в Бразилии во время правления Жаира Болсонару и способы борьбы с ними. *Журнал «Metafizika», 7(3),* с.175-188.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.175-188

***История статьи:***
*Статья поступила в редакцию: 15.04.2024*
*Отправлена на доработку: 20.05.2024*
*Принята для печати: 29.07.2024*

**UOT:** 327.
**KBT:** 66.4
**MJ №** 229
10.33864/2617-751X.2024.v7.i3.175-188

# Jair Bolsonaronun hakimiyyəti dövründə Braziliyada yerli qəbilə xalqlarına qarşı olan təhdidlər və onlarla mübarizə yolları

**Mələk Cəfərli***

**Abstrakt.** Braziliya coğrafi cəhətdən böyük bir ölkə olub, çoxlu sayda yerli xalqlara ev sahibliyi edir. Bu qəbilələr ənənəvi həyat tərzini qoruyub saxlamağa çalışsalar da, müasir dünya ilə qarşılıqlı əlaqədə olaraq, zamanla mədəni dəyişikliklər yaşamışlar. Ancaq son illərdə, xüsusilə, Amazon meşələrində yaşayan yerli qəbilələr meşələrin qırılması və ekoloji təhlükələrlə mübarizə aparmağa məcbur olmuşlar. Buna görə də yerli xalqlar və onların mədəni irsinin qorunub saxlanması dövrün multikultural dünya fonunda aktual məsələlərdəndir. Amazon tropik meşələri bütün dünyada biomüxtəliflik baxımından böyük əhəmiyyət kəsb edir. Bununla belə, sabiq prezident Jair Bolsonaro dövründə meşələrin məhv edilməsi sürətlənmiş və bu vəziyyət yerli xalqların təbii yaşayış yerlərinin məhvinə, eləcə də, iqlim dəyişikliyi ilə mübarizədə çətinliklərə səbəb olmuşdur. Nəticədə, keçmiş prezidentin dövründə Braziliyadakı yerli xalqlar torpaq hüquqları, mədəni irs və ümumi yaşayış yerləri üçün böyük təhlükələrlə üzləşmişlər. Yerli xalqların torpaqlarına hücumlar təkcə fiziki deyil, həm də mədəni və dil itkilərinə səbəb olmuşdur. Yerli icmalar ənənəvi həyat tərzini qorumaq, dil və mədəniyyətlərini gələcək nəsillərə ötürmək üçün mübarizə aparmışlar. Ətraf mühit təşkilatları, insan haqları müdafiəçiləri və digər dövlətlər Braziliyanın bu məsələ ilə bağlı siyasətini və praktikasını tənqid edərək, dəyişikliklər tələb etmişdir. Məqalədə J.Bolsonaro dövründə yerli xalqlara qarşı olan təhdidlərin əsas səbəbləri ətraflı araşdırılmış və onların mövcudluğunun saxlanılması naminə milli və beynəlxalq dəstək almaqla vətəndaş cəmiyyətində ictimai şüurun inkişaf etdirilməsi; iqtisadiyyatın dirçəldilməsi; yerli torpaqların istilasını dayandırmaq üçün monitorinqin həyata keçirilməsi və ətraf mühitin qorunmasının daha da gücləndirilməsi kimi həll alternativləri nəzərdən keçirilmişdir.

**Açar sözlər:** Braziliya, yerli xalqlar, mədəni irs, Yanomami qəbiləsi, beynəlxalq hüquq, Jair Bolsonaro

---

* Azərbaycan Turizm və Menecment Universitetinin "Beynəlxalq münasibətlər" üzrə doktorantı,
Azərbaycan Memarlıq və İnşaat Universitetinin "İctimai fənlər" kafedrasının müəllimi; Bakı, Azərbaycan
E-mail: rzaeva.m15@gmail.com
https://orcid.org/0000-0002-7232-8465

**Məqaləyə istinad:** Cəfərli, M. [2024] Jair Bolsonaronun hakimiyyəti dövründə Braziliyada yerli qəbilə xalqlarına qarşı olan təhdidlər və onlarla mübarizə yolları. *"Metafizika" jurnalı, 7*(3), səh.175-188.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.175-188

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 15.04.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 20.05.2024*
*Çapa qəbul edilmişdir: 29.07.2024*

## 1.Giriş

Braziliya mənsub olduğu xalqlar baxımından zəngin bir ölkədir. Lakin, bəzi yerli qəbilələr və onların yaşadığı ərazilər, tarix boyu müxtəlif təhdidlərlə üzləşmişdir. Son illərdə isə, xüsusilə, Jair Bolsonaro hökuməti zamanında, bu təhdidlər daha da artmışdır. J.Bolsonaro 2019-cu ildən 2022-ci ilin 31 dekabr tarixinə qədər Braziliya prezidenti olub və mühafizəkar siyasi xadim kimi tanınıb. Seçilməzdən əvvəl o, daha çox sağçı baxışları ilə tanınırdı və xüsusilə təhlükəsizlik, iqtisadiyyat və ətraf mühit kimi məsələlərlə bağlı siyasətləri ilə seçilirdi. Lakin Bolsonaronun yerli xalqlarla münasibəti mübahisəlidir. Bolsonaronun yerli xalqlara qarşı siyasəti onların torpaqlarını və hüquqlarını təhlükə altında qoymuşdur.

Dünyada Yerli xalqlar üzrə Beynəlxalq İşçi Qrupunun (IWGIA) 2022-ci ildə yaydığı hesabata əsasən, dünyada 5000-ə yaxın fərqli mədəniyyəti təmsil edən təxminən 476 milyon yerli xalq yaşayır [Buchholz, 2022, s.1]. 1989-cu ildə qəbul edilmiş Beynəlxalq Əmək Təşkilatının (ILO) 169 nömrəli konvensiyası ilə yerli qəbilə və xalqların hüquqları qorunur. Yerli xalqların hüquqları son 20 il ərzində getdikcə daha çox beynəlxalq sənədlər, eləcə də, mexanizmlər vasitəsilə tanınmışdır. Bunlara daxildir: 2007-ci il Yerli xalqların hüquqları haqqında BMT Bəyannaməsi (UNDRIP); 2016-cı il Yerli xalqların hüquqları haqqında Amerika Bəyannaməsi; Birləşmiş Millətlərin Yerli məsələlər üzrə Daimi forumun yaradılması (UNPFII), Yerli Xalqların Hüquqları üzrə Ekspert Mexanizmi (EMRIP) və Yerli xalqların hüquqları ilə bağlı BMT-nin Xüsusi Məruzəçisi (UNSR).

Yerli xalqlara 90 ölkə ev sahibliyi edir, bunlardan biri də Braziliya Federativ Respublikasıdır. 2010-cu il, Braziliya Coğrafiya və Statistika İnstitutunun siyahıya alınmasına istinadən, Braziliyanın yerli əhalisinin sayı 274 dildə danışan 305 etnik qrupu təşkil edən 896,900 nəfərdir. Braziliya ərazisinin 12,5%-ni (106,7 milyon hektar) yerli topraqlar təşkil edir və 517,400 (ümumi miqdarın 57,75-i) yerli xalq bu ərazilərdə yaşayır. 25,700 nəfər əhalisi olan ən böyük yerli torpaq ərazisi, Amazonas və Rorayma ştatlarında Yanomami ərazisidir [9].

Qeyd etmək lazımdır ki, Braziliyada yerli xalqların hüquqları ilk olaraq 1988-ci il Konstitusiyasına (başlıq VIII - fəsil VIII – maddə 231 və 232) əsasən qorunur. 1988-ci il Konstitusiyası yerli xalqları torpağın ilk və təbii sahibləri kimi tanıyır və onların torpaq hüquqlarına zəmanət verir, eləcə də, Federal Hökumətin yerli xalqların ictimai təşkilatına, dillərinə, inanclarına və adət-ənənələrinə hörmət etməsini təmin edir. 2002-ci ildə isə Braziliya Beynəlxalq Əmək Təşkilatının (İLO) 169 nömrəli konvensiyasına qoşulmuşdur [C169 - Indigenous and Tribal Peoples Convention, 1989].

Beynəlxalq hüquqda, həmçinin, beynəlxalq sənədlər və ölkənin öz konstitusiyasında təsbit edilmiş maddələrlə yerli xalqların hüquqlarının tanınmasına baxmayaraq, təəssüf ki, buna lazımi səviyyədə hörmət edilmir. Xüsusilə, Braziliyadakı siyasi-iqtisadi qarışıqlıq şəraitində, sabiq prezident, sağçı lider J.Bolsonaronun dövründə Braziliyanın Amazon cəngəlliklərində yaşayan yerli xalqlar torpaqlarını istifadə və idarə etmək hüquqlarına olan təhdidlərlə mübarizə aparmalı olmuşlar. Yerli xalqlar Braziliyada, eləcə də, Amerikanın hər yerində həm dövlət, həm də özəl sektor tərəfindən uzun müddət risk və təzyiq altında qalmışdır. Ancaq son illərdə vəziyyətin getdikcə pisləşməsinə dair konkret göstəricilər var.

Belə ki, Amazon cəngəlliyinin mərkəzində yerləşən, yuxarıda da adı çəkilən Yanomami ərazisində son beş ildə qanunsuz qızıl hasilatı kəskin şəkildə artmışdır. Bu səbəbdən bölgədə meşələr məhv olur, yanğınlar baş verir, çaylar zəhərlənir və ora gələn mədəncilərin özləri ilə gətirdikləri epidemiyalar qəbilədə yayılır, yerli sakinləri ölüm təhlükəsi ilə qarşılaşır. Yerli qəbilə xalqları bir növ etnosidlə üz-üzə qalmışdır. Yerli xalqları qorumaq - oksigen zənginliyinə görə dünyanın “ağ ciyəri” sayılan Amazonu qorumaq qədər mühümdür. Çünki məhz yerli xalqlar meşələrin necə qeydinə qalmalı olduqlarını bilir.

Bundan əlavə, yerli xalqların torpaq hüquqlarının və mədəni irsinin qorunub saxlanılması yeni dünya reallığıdır. Çünki müasir dünyanın inkişaf etmiş ölkələrində etnik qrupların və milli azlıqların polietnik təkamülünə fəlsəfi baxış və onun multikultural, həmçinin tolerant ənənələri, milli, irqi, etnik, dini müxtəlifliyinin bütün formalarının qloballaşma prosesi fonunda beynəlxalq hüquq normaları çərçivəsində subyektiv təfsiri hazırda çox aktual və dünya praktikasında işlək platforma kimi həyata keçməsi əhəmiyyətlidir. Yerli xalqların və milli azlıqların mədəni hüquqlarının pozulmasının cəmiyyətdə gələcəkdə baş verə biləcək münaqişələrə yol aça bilməsi fonunda təhlükəli nəticələri və onun müasir siyasi reallıqlar kontekstində həyata keçirilməsinin elmi-fəlsəfi nəzəriyyəsinin hazırlanması və onun ictimai-siyasi fikirdə təşəkkülü formaları açıqlanmışdır. Beynəlxalq siyasi və mədəni təşkilatların qarşıya qoyduqları məqsəd və vəzifələrinə uyğun olaraq müəyyən ölkə ərazisində yerli xalqlar və etnik azlıqların nümayəndələri dövlət səviyyəsində öz milli və sosial kimliklərinə qovuşmaq və inkişaf etdirmək üçün mədəni hüquqlarından tam olaraq istifadə edə bilərlər. [Gasimova, 2022, s.81-82]

## 2.Yerli xalqların üzləşdiyi problemlər və səbəbləri

Cənubi Amerikada yaşayan, dünyanın qalan hissəsindən təcrid olunmuş ən böyük qəbilələrdən biri Yanomami-dir. 26.700 nəfərdən çox insanın yaşadığı meşə ərazisinin altında qızıl da daxil olmaqla bir çox qiymətli mədənlər

mövcuddur. Sağçı J.Bolsonaronun dövlət başçısı seçilməsi ilə bu ərazidəki qeyri-qanuni mədəncilik işlərini daha da artırdı. Çünki hələ prezident seçilməmişdən öncə, J.Bolsonaro, Amazon mədənlərini işlətməyə açaraq ölkədə iqtisadiyyatı canlandıracağına dair vədlər vermişdir və bu, qızıl axtarışında olan qaçaq mədənciləri daha da cəsarətləndirdi. Fasiləsiz şəkildə təxminən 20.000 qaçaq mədənci Amazonun düz mərkəzində qazıntı işləri aparmışdır. Qeyri-qanuni şəkildə mədəncilik ilə məşğul olan şəxslərin səpələnmiş fəaliyyəti yerli xalqların yaşayış yerlərini dağıdır, Yanomami sakinlərini məhv edir. Qum daşından qızılları təmizləmək üçün civədən istifadə olunur və bu civə çaylara axaraq balıqları zəhərləyir. Bu balıqlarla qidalanan yerli sakinlərdə çox ciddi sağlamlıq problemləri yaranır.

Beynəlxalq Ətraf Mühit Tədqiqatları və İctimai Səhiyyə jurnalının (MDPI) 2018-ci ildə yayımladığı araşdırmaya əsasən, Yanomami qəbiləsində yaşayan insanların 92%-nin daxili orqanlarına zərər verən və uşaqlarda inkişaf pozuntularına səbəb olan civə zəhərlənməsinə məruz qaldığı bildirilir [Vega; Orellana; Oliveira; Hacon; Basta, 2018, s.3]. Bununla yanaşı, qəbilə ərazisində qızıl mədəncilərinin özləri ilə gətirdikləri epidemiyaların (qızılca, malyariya və s.) sürətlə yayılmasına və buna müvaqiməti olmayan yerli sakinlərin məhvinə gətirib çıxarır. Hər şey tək bununla kifayətlənmir. Yerli qəbilə üzvləri dəfələrlə ox-yay tədarükü görüb, mədən işçilərinə qarşı savaş çıxartmışdır. Bu da illərdir sülh içində yaşayan cəmiyyətin bir anda silahlı qarşıdurmaya girməsinə səbəb olur. Bunu da qeyd etmək lazımdır ki, mədən işçiləri yerlilərin topraqlarına özləri ilə bərabər işlənmiş qida, alkoqol, narkotik vasitələr gətirir, yerli sakinlərin yemə-içmə vərdişlərinin, həyat tərzinin dəyişib, pisləşməsinə səbəb olurlar. Məhz buna görə də ruhsal və bədənsəl olaraq yerli üzvlər xəstə düşür, indi 100 qram qızıl tapan hər üzv bunu gedib alkoqola xərcləyir.

Hökumət məlumatlarında, Braziliyanın ən şimal hissəsində yerləşən Rorayma əyalətində ən çox ixrac edilən mallar içərində qızılın olduğu bildirilir. Lakin bölgədə mədənciliyə aid heç bir rəsmi qeydiyyatda olan fəaliyyət yoxdur. Bütün qızıl çıxarma fəaliyyəti Yanomami kimi yerli qəbilələrin yaşadığı torpaqlarda həyata keçirilir. Ən çox Hindistana göndərilən qızılın ixracatı, rəsmi statistikalara əsasən, 2018-ci ildə 38 kilo olduğu halda, 2019-cu ildə artıq 486 kiloya qalxmışdır. [19] Mədən işçilərinin, əslində, bu ərazilərə axının əsas səbəbi kimi sabiq prezident J.Bolsonaronun siyasət kursu, bununla yanaşı, ölkədə son dövrlərdə iqtisadiyyatın tənəzzülə uğraması, işsizliyin hökm sürməsində görülür. Xüsusilə, 2020-ci ildə ən pik həddə çataraq 30.22% təşkil etmişdir. [3] [Brazil: Youth unemployment rate from 2004 to 2023]

**3.Jair Bolsonaronun siyasət kursu**

Braziliya qanunlarına görə, yerli torpaqlarda mədən fəaliyyəti ilə məşğul olmaq qadağandır. Lakin buna baxmayaraq qeyri-qanuni yollarla qızıl axtarışında olanların fəaliyyətinə J.Bolsonaro hökumətinin yürütdüyü siyasət xətti rəvac vermişdir. J.Bolsonaronun fikrincə, 9,6 milyon hektar əraziyə malik Yanomami rezervasiyası (qoruq) yerli əhali üçün çox böyükdür. Amazon bölgəsindəki yerli torpaqların qanunsuz zəbt edilməsinə imkan yaradan J.Bolsonaro siyasət kursu nəticəsində təqribən 75.000 meşə yanğınına səbəb olmuşdur. Mühafizəkar siyasi kampaniyasının ardınca, 2019-cu ildə, Sosial Liberal Partiyasından (PSL) Jair Bolsonaro Braziliya prezidenti seçildi. J.Bolsonaro evangelist və ərazi qrupları tərəfindən dəstəklənmişdir. Yeni prezidentin hökuməti, vitse-prezident, istefada olan general Hamilton tərəfindən təmsil olunan ordunun güclü dəstəyinə malik idi. [Watson, 2018]

J.Bolsonaronun siyasi kampaniyasının əsasında 4 əsas sahə prioritet təşkil edirdi: torpaq hüquqları, təhsil, iqtisadiyyat və ictimai təhlükəsizlik. Torpaq hüquqları ilə bağlı vədlər birbaşa yerli xalqların taleyi ilə əlaqədar idi. Bolsonaronun prezident olaraq ilk addımlarından biri, “X” sosial şəbəkə platformasında (Twitter), Donald Trump tərəfindən yerli xalqların torpaqlarının demarkasiyanın dayandırması ilə öyünməsi olmuşdur. Bu, Braziliyanın yerli əhalisinin tanınması və torpaq hüquqlarına sahib olmaq üçün on illiklər boyu səy göstərməsinin nəticəsiz qalması demək idi. Demarkasiya prosesinin dayandırılması, xüsusilə Amazonun ucqar yerlərində dağ-mədən, kənd təsərrüfatı üçün torpaq açırdı.

1 yanvar, 2019-cu ildə, vəzifəyə gələn prezident hökuməti altında yerli topraqların demarkasiyası olmayacağını açıq şəkildə bildirərək öz mövqeyini ortaya qoymuşdur. Bu açıqlamanın ardınca demarkasiyaya cavabdeh olan orqan - Braziliyanın Milli Hindu Fondu (FUNAI) idarəetmədə bir sıra dəyişikliklərə məruz qaldı. Birincisi, Pentekostal yepiskopu Damares Alvesin nəzdində Ailə Nazirliyinə verildi; daha sonra, Tereza Cristina Corrêa da Costa Diasın rəhbərliyi altında Kənd Təsərrüfatı Nazirliyinə, ən sonda yenidən Ədliyyə Nazirliyinə qaytarıldı. FUNAI-nin öz yerinə qayıtması yerli hərəkat, vətəndaş cəmiyyəti, eləcə də, milli və beynəlxalq QHT-lərin etirazları nəticəsində baş verdi. Lakin onun Ədliyyə Nazirliyinə qayıtması indiki hökumətin müdaxiləsinin qarşısını almadı. [6]

Hökumətin bu kimi müdaxilələrinin qanuniləşdirilməsindən əvvəl bunun üçün zəmin yaradılırdı. Belə ki, J.Bolsonaro yerli torpaqlarda qeyri-qanuni hər hansı fəaliyyətlə məşğul olanlara tətbiq edilən cərimələri azaltmışdır. Eləcə də, dövlət büdcəsindən yerli xalqlar üçün ayrılan vəsaitin həcmini daraltmış, FUNAI kimi qurumlara maliyyə dəstəyini də kəsmişdir.

Çox keçmədən, 2020-ci il mayın 22-də, yerli xalqlara qarşı olan bu cür hücumları qanuniləşdirmək məqsədilə, hökumət tərəfindən 40 nömrəli Normativ Təlimat (*INSTRUÇÃO NORMATIVA Nº 40, DE 22 DE MAIO DE 2020*) adlanan qanun layihəsi dərc edildi, hansı ki, Braziliyanın yerli agentliyi - FUNAI-nin "Hüdudların Tanınması Bəyannaməsi"-nin fəaliyyət istiqamətini dəyişərək, ölkənin mövcud yerli siyasətinin çoxunu alt-üst edir. [18] Bu bəyannamə kəndli mülk sahiblərinə tələb etdikləri ərazinin yerli ərazilərə təsir etməməsinə zəmanət verən bir sertifikat təqdim edir. Əvvəllər, iddia edilən torpaq yerli ərazilərə daxil olduqda - bir əcdadın yerli iddiasını rəsmi olaraq tanımaq üçün uzun bürokratik prosesin başa çatıb-çatmamasından asılı olmayaraq belə bir sertifikat verilmirdi.

Ümumiyyətlə, J.Bolsonaro yerli xalqların sivil həyata inteqrasiya etməsinin tərəfdarı olduğunu dəfələrlə vurğulamışdır. O, qeyd etmişdir ki, yerli qəbilə sakinləri də bizim kimi insanlardır və onların heyvanların zooparka salındığı kimi hər hansı qoruma sərhədləri ilə əhatə olunmasının əhəmiyyətsiz hesab etmişdir. J.Bolsonaronun prezident seçilməsinin digər səbəblərindən biri onun siyasi kampaniya zamanı iqtisadiyyatı dirçəlməsi baxımından verdiyi vədlər olmuşdur. O, kampaniyası ərzində iqtisadi artıma əngəl olduğu üçün ətraf mühit qanunlarını ləğv edəcəyini açıqlamışdır. Ölkədə özəlləşdirmə, təqaüd yaşının artması və eləcə də, qiymətli sərvətə sahib olan yerli torpaqların kənd təsərrüfatına və sənayeyə açılması hesabına iqtisadiyyatı dirçəldəcəyini vurğulamışdır. Bu isə əlbəttə ki, minlərlə yerli qəbilə üzvünün ölümünə, meşələrin məhvinə səbəb olacaqdır. Təsadüfi deyil ki, Braziliyanın Yerli Xalqlar Dərnəyi koordinatoru Dinama Tuxa Bolsonaronun Braziliyada soyqırımın institutlaşdırılmasını təmsil etdiyi fikrini bildirmişdir. Qeyd etmək lazımdır ki, J.Bolsonaronun hakimiyyətə gəlməsi ilə ekoloji və ətraf mühitlə bağlı qanunların yumşaldılması tərəfdarı olan siyasətçilərin gücü daha çox artırmışdır. Milli yerli təşkilata ayrılan büdcə son illərdə kəsilmiş və ucqar ərazilərdə yaşayan yerli əhalinin əsas ehtiyaclarını əldə etməsi çətinləşmişdir.

Digər tərəfdən bunu da nəzərə almaq lazımdır ki, Braziliyadakı millət vəkilləri nə qədər Amazon yerli torpaqlarında mədəncilik, taxtaçılıq, kənd təsərrüfatını genişləndirmək üçün təzyiq göstərsələr də, bəzi prokuror və məmurlar öz vəzifəsini yerinə yetirdiyi müddətcə ətraf mühit qanunlarını tətbiqi üçün öz səlahiyyətlərindən istifadə edərək buna qətiyyətlə müqavimət göstərirlər. Müdafiəçilər bu kimi fəaliyyətlərin yerli xalqların və onların mədəniyyətlərinin yox olmasına səbəb olduğunu söyləyərək, hüquqi proses başladıblar. Əslində, Bolsonaronu saxlayan struktur əngəllər olmuşdur, hansı ki, onun yerli xalqların bütün torpaq hüquqlarını ləğv etmə səlahiyyətini Braziliya konstitusiyası ilə nəzərdə tutulmuş qurumların güclü müdafiəsi

məhdudlaşdırır. Bu qurumları Braziliyanın yuxarı məhkəməsi də dəstəkləyir. Yerli xalqların qorunması üçün beynəlxalq təzyiqin yüksək dozada artırılması, Bolsonaro planlarının həyata keçirilməsində əks effekt vermişdir.

**4.Siyasi həll alternativləri**

Braziliyada yerli xalqlara qarşı olan təhdidlərin yuxarıda sadalanan bir yox bir neçə səbəbi olduğu üçün, həll alternativləri də məhz bir neçə istiqamətdə nəzərdən keçirilmişdir.

- İctimai şüurun inkişaf etdirilməsi:

Yerli xalqların hüquqlarının qorunması üçün maarifləndirmə işləri görmək vacibdir. Milli və beynəlxalq səviyyədə əhalini yerli xalqların yaşayışı, onların hüquqları, meşələrin qorunmasında rollarının nədən ibarət olduğu barədə maarifləndirmək üçün seminarlar təşkil etmək, QHT-lər tərəfindən ölkə ərazisində bilgiləndirmə məqsədli broşüraları paylamaqdır.

- İstisadiyyatın bərpa edilməsi:

Maliyyə islahatları keçirmək, vergi sistemini asanlaşdırmaq, xarici ticarət və investisiya üçün daxili bazarı liberallaşdırmaq, yerli torpaqların istifadəyə açılmasına alternativ olaraq əl işi sənətlərinin, yerli meyvələrin satışı yoluyla gəlir əldə etməkdir.

- Mühafizəyə güclü nəzarətin təmin edilməsi:

Yerli xalqların hüquqlarını pozan, yerli torpaqlarda qeyri-qanuni fəaliyyətlə məşğul olanları məsuliyyətə cəlb edə bilmək üçün nəzarəti həyata keçirən effektiv monitorinq sistemlərini qurmaq; bu hədəflərə cavab verən şirkətləri dəstəkləmək, həmin sistemlərin qurulması üçün maliyyə vəsiti ayırmaq; meşələrin qırılmasında, yanğınlarda, eləcə də yerli qəbilə üzvlərinin ölümündə günahkar bilinənləri sərt şəkildə cəzalandırmaq, çox yüksək məbləğli cərimələr tətbiq etməkdir.

- Yerli xalqların hüquqlarının müdafiəsi ilə bağlı olan qurumlara dəstək:

Hal-hazırda müdafiə ilə məşğul olan bir neçə qurum (FUNAI; IBAMA) fəaliyyət göstərir. Belə qurumlara maliyyə dəstəyini artırmaq, daha çox insanın belə qurumlara ianə etməsini təşviq etmək üçün məlumatlandırma xarakterli tədbirlər təşkil etmək, həmçinin, qanunu pozanlardan alınan cərimələri də birbaşa bu qurumların büdcəsinə yönləndirməkdir.

**5.Nəticə**

Braziliyada baş verənlər təkcə ölkə üçün deyil, Latın Amerikası və dünya üçün də müəyyən nəticələri vardır. Braziliya qitənin ən böyük iqtisadiyyatına malikdir və dünyanın ən böyük meşəliklərinə ev sahibliyi etməkdədir. Amazon meşəliyinin bütün planetimiz üçün böyük əhəmiyyəti vardır. Bundan əlavə, orada yaşayan yerli qəbilələrin o meşələrin qorunmasında, meşələrin mövcudluğuna təhlükə zamanı lazımi tədbirlərin görülməsində, eləcə də, bu

haqda məlumatın verilməsində böyük rol oynadıqlarını nəzərdə saxlamaq lazımdır.

Braziliya Federativ Respublikasında Amazon bölgəsində yerli qəbilələrin mövcudluğuna olan təhdidlər, yaşadıqları problemlər araşdırıldı və əsas səbəblər aşkar olundu. Demokratik yolla seçilən J.Bolsonaronun mübahisəli və qeyri-adekvat siyasət kursu, yaratdığı avtoritar mənzərə seçildiyi sistemə qarşı zidd xarakter təşkil edirdi. Yerli xalqlar ilə qarşıdurma, yerli torpaqların istilasına qeyri-qanuni icazə, yerli qəbilə üzvlərinin hüquqlarının pozulması, milli və beynəlxalq QHT-lərə qarşı təhdidlər – həmçinin demokratiyaya qarşı da təhdiddir. Uzun illər davam edən hərbi diktaturanın ardından qurulmuş demokratiya risk altına düşmüşdür.

Hökumət Amazonun qanunsuz işğalı və istismarı ilə maraqlananların hərəkətlərini dəstəkləmək; aqrobiznes, dağ-mədən kəşfiyyatı və su elektrik stansiyalarının inşası sahələrini genişləndirmək gücünə malikdir. Əvvəllər, bu torpaqlara sahib olmaq üçün gözləntilər az olsa da, lakin indi cərimələrin ləğvi və ya kəskin azaldılması barədə qərar verməklə, eyni zamanda qanunsuz mülkləri tanıyan bir sistemi dəstəkləməklə hökumət bu cür münasibəti sadəcə qanuniləşdirmişdir. Evangelist sektorlar tərəfindən dəstəklənən prezidentin aydın mövqeyi, Braziliyanın son demokratiya tarixindəki ən böyük uğursuzluqlardan birinə çevrilmişdir.

## ƏDƏBİYYAT


1. Banning-Lover, R. (2017). How to stop deforestation: ‘Indigenous people are the best park rangers’. *The Guardian.* https://www.theguardian.com/global-development-professionals-network/2017/apr/04/how-to-stop-deforestation-indigenous-people-are-the-best-park-rangers
2. Buchholz, K. (2022). Where the world's indigenous people live? *Statista.* https://www.statista.com/chart/18981/countries-with-the-largest-share-of-indigenous-people/
3. Brazil: Youth unemployment rate from 2004 to 2023. (n.d.). *Statista.* https://www.statista.com/statistics/811696/youth-unemployment-rate-in-brazil/
4. Canineu, M., & Carvalho, A. (2020). Bolsonaro's plan to legalize crimes against indigenous peoples. *Human Rights Watch*. https://www.hrw.org/news/2020/03/01/bolsonaros-plan-legalize-crimes-against-indigenous-peoples
5. C169 - Indigenous and Tribal Peoples Convention, 1989 (No. 169). (n.d.). *International Labour Organization*. https://www.ilo.org/dyn/normlex/en/f?p=NORMLEXPUB:55:0::NO::P55

_TYPE,P55_LANG,P55_DOCUMENT,P55_NODE:REV,en,C169,/Document

6. Funai - National Indian Foundation (Brazil). (n.d.). *Survival International*. https://www.survivalinternational.org/about/funai
7. Gasimova, N. (2022). Multiculturalism as the main philosophical concept in the social development of modern society. *Metafizika*, *5*(4), 77-87. https://metafizikajurnali.az/storage/images/site/files/Metafizika-20/Metafizika.Vol.5%2CNo.4%2CSerial.20%2Cpp.77-87.pdf
8. Gene, F. (2014). 4 ways to boost Brazil's growth. *World Economic Forum*. https://www.weforum.org/agenda/2014/08/brazil-rousseff-acquired-rights-reform/
9. General Characteristics of the Indian Population: Results of the Universe, Brazil. (n.d.). *IBGE*. https://www.ibge.gov.br/en/statistics/social/population/18391-2010-population-census.html?edicao=19316&t=resultados
10. Gonzalez, E., Leme, L. (2019). *Tracking the First 100 Days of Brazilian President Jair Bolsonaro*. https://www.as-coa.org/articles/tracking-first-100-days-brazilian-president-jair-bolsonaro
11. Indigenous World 2019: Brazil. (n.d.). *IWGIA*. https://www.iwgia.org/en/brazil/3391-iw2019-brazil
12. Phillips, D. (2020). 'Genocide' fears for isolated tribes as ex-missionary named to head Brazil agency. *The Guardian*. https://www.theguardian.com/world/2020/feb/05/brazil-indigenous-tribes-missionary-agency-ricardo-lopes-dias-christianity-disease
13. Sims, S. (2019). Here's how Jair Bolsonaro wants to transform Brazil. *The Atlantic*. https://www.theatlantic.com/international/archive/2019/01/heres-how-jair-bolsonaro-wants-to-transform-brazil/580207/
14. Torres, M., & Branford, S. (2020). Brazil opens 38,000 square miles of indigenous lands to outsiders. *Mongabay*. https://news.mongabay.com/2020/05/brazil-opens-38000-square-miles-of-indigenous-lands-to-outsiders/
15. Vega, C., Orellana, J., Oliveira, M., Hacon, S., & Basta, P. (2018). Human mercury exposure in Yanomami indigenous villages from the Brazilian Amazon. *International Journal of Environmental Research and Public Health, 15*(6), 1051. https://www.mdpi.com/1660-4601/15/6/1051
16. Watson, K. (2018). Jair Bolsonaro: Who supports Brazil's new president? *BBC*. https://www.bbc.com/news/world-latin-america-45979682
17. Young, H. (2016). Nine ways to support the rights of indigenous people. *The Guardian*. https://www.theguardian.com/global-development-

professionals-network/2016/apr/01/nine-ways-to-support-the-rights-of-indigenous-people

18. Instrucao Normativa No 40, de 22 de Maio de 2020. (n.d.). *Governo do Brasil.* https://www.gov.br/compras/pt-br/acesso-a-informacao/legislacao/instrucoes-normativas/instrucao-normativa-no-40-de-22-de-maio-de-2020
19. Altın talanı Amazon'un son kabilesi tehdit altında. (n.d.). *Yenidönem.* https://www.yenidonem.com.tr/yasam/altin-talani-amazon-un-son-kabilesi-tehdit-altinda-89881

## REFERENCES


1. Banning-Lover, R. (2017). How to stop deforestation: 'Indigenous people are the best park rangers'. *The Guardian.* https://www.theguardian.com/global-development-professionals-network/2017/apr/04/how-to-stop-deforestation-indigenous-people-are-the-best-park-rangers (in English)
2. Buchholz, K. (2022). Where the world's indigenous people live? *Statista.* https://www.statista.com/chart/18981/countries-with-the-largest-share-of-indigenous-people/ (in English)
3. Brazil: Youth unemployment rate from 2004 to 2023. (n.d.). *Statista.* https://www.statista.com/statistics/811696/youth-unemployment-rate-in-brazil/ (in English)
4. Canineu, M., & Carvalho, A. (2020). Bolsonaro's plan to legalize crimes against indigenous peoples. *Human Rights Watch*. https://www.hrw.org/news/2020/03/01/bolsonaros-plan-legalize-crimes-against-indigenous-peoples (in English)
5. C169 - Indigenous and Tribal Peoples Convention, 1989 (No. 169). (n.d.). *International Labour Organization*. https://www.ilo.org/dyn/normlex/en/f?p=NORMLEXPUB:55:0::NO::P55_TYPE,P55_LANG,P55_DOCUMENT,P55_NODE:REV,en,C169,/Document (in English)
6. Funai - National Indian Foundation (Brazil). (n.d.). *Survival International*. https://www.survivalinternational.org/about/funai(in English)
7. Gasimova, N. (2022). Multiculturalism as the main philosophical concept in the social development of modern society. *Metafizika, 5*(4), 77-87. https://metafizikajurnali.az/storage/images/site/files/Metafizika-20/Metafizika.Vol.5%2CNo.4%2CSerial.20%2Cpp.77-87.pdf (in English)

**8.** Gene, F. (2014). 4 ways to boost Brazil’s growth. *World Economic Forum*. https://www.weforum.org/agenda/2014/08/brazil-rousseff-acquired-rights-reform/ (in English)
**9.** General Characteristics of the Indian Population: Results of the Universe, Brazil. (n.d.). *IBGE*. https://www.ibge.gov.br/en/statistics/social/population/18391-2010-population-census.html?edicao=19316&t=resultados (in English)
**10.** Gonzalez, E., Leme, L. (2019). *Tracking the First 100 Days of Brazilian President Jair Bolsonaro*. https://www.as-coa.org/articles/tracking-first-100-days-brazilian-president-jair-bolsonaro (in English)
**11.** Indigenous World 2019: Brazil. (n.d.). *IWGIA*. https://www.iwgia.org/en/brazil/3391-iw2019-brazil (in English)
**12.** Phillips, D. (2020). 'Genocide' fears for isolated tribes as ex-missionary named to head Brazil agency. *The Guardian*. https://www.theguardian.com/world/2020/feb/05/brazil-indigenous-tribes-missionary-agency-ricardo-lopes-dias-christianity-disease (in English)
**13.** Sims, S. (2019). Here’s how Jair Bolsonaro wants to transform Brazil. *The Atlantic*. https://www.theatlantic.com/international/archive/2019/01/heres-how-jair-bolsonaro-wants-to-transform-brazil/580207/ (in English)
**14.** Torres, M., & Branford, S. (2020). Brazil opens 38,000 square miles of indigenous lands to outsiders. *Mongabay*. https://news.mongabay.com/2020/05/brazil-opens-38000-square-miles-of-indigenous-lands-to-outsiders/ (in English)
**15.** Vega, C., Orellana, J., Oliveira, M., Hacon, S., & Basta, P. (2018). Human mercury exposure in Yanomami indigenous villages from the Brazilian Amazon. *International Journal of Environmental Research and Public Health*, *15*(6), 1051. https://www.mdpi.com/1660-4601/15/6/1051 (in English)
**16.** Watson, K. (2018). Jair Bolsonaro: Who supports Brazil's new president? *BBC*. https://www.bbc.com/news/world-latin-america-45979682 (in English)
**17.** Young, H. (2016). Nine ways to support the rights of indigenous people. *The Guardian*. https://www.theguardian.com/global-development-professionals-network/2016/apr/01/nine-ways-to-support-the-rights-of-indigenous-people (in English)
**18.** Normative Instruction No. 40, of May 22, 2020. (n.d.). *Government of Brazil*. https://www.gov.br/compras/pt-br/acesso-a-

informacao/legislacao/instrucoes-normativas/instrucao-normativa-no-40-de-22-de-maio-de-2020 (in Portuguese)

**19.** Gold loot The last tribe of the Amazon is under threat. (n.d.). *Yenidonem.* https://www.yenidonem.com.tr/yasam/altin-talani-amazon-un-son-kabilesi-tehdit-altinda-89881 (in Turkish)